AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ RƏYASƏT HEYƏTİ

# QƏRAR

№ 11/17

Bakı şəhəri 27 iyun 2019-cu il

Professor Lütfi Zadə adına
Xatirə nişanının Əsasnaməsi haqqında

AMEA Rəyasət Heyətinin 3 aprel 2019-cu il tarixli 8/8 nömrəli qərarı ilə dünya şöhrətli alim, informasiya texnologiyaları və idarəetmə elminin tarixində köklü dəyişikliklərə yol açan qeyri-səlis məntiq və qeyri-səlis çoxluqlar nəzəriyyəsinin banisi professor Lütfi Zadənin adına Xatirə nişanı təsis edilmişdir. Həmin qərarın 6-cı bəndinə əsasən Xatirə nişanı haqqında Əsasnamənin layihəsi hazırlanıb AMEA-nın Rəyasət Heyətinə təqdim edilmişdir. Xatirə nişanının Əsasnaməsinin layihəsini müzakirə edərək Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALIR:**

1. AMEA-nın professor Lütfi Zadə adına Xatirə nişanı haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).
2. AMEA-nın akademik-katibi AMEA-nın müxbir üzvü Əminağa Sadıqova, AMEA-nın İşlər idarəsinə (siyasi elmlər doktoru Fətəli Abdullayev), AMEA Rəyasət Heyəti aparatının Maliyyə və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, qərarın icrasından irəli gələn məsələlər həll edilsin.
3. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti akademik İbrahim Quliyevə həvalə edilsin.

AMEA-nın prezidenti akademik Akif Əlizadə

AMEA-nın akademik-katibi AMEA-nın müxbir üzvü
Əminağa Sadıqov

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI RƏYASƏT HEYƏTİ APARATI PROTOKOL ŞÖBƏSİ